# Türk mədəniyyətinin ulu yolu: zamanda kimlik, kimlikdə zaman

(Yığcam bilgilər)

**Türk mədəniyyəti bir etnosun yaşayış tərzi ilə yanaşı, zaman və məkan içində formalaşan çoxqatlı ruhi dünyanı da təcalla etdirir. Bu mədəniyyət təkamül etdikcə də, direniş göstərdikcə də öz mahiyyətini qorumağı bacaran nadir hadisələrdən biri olub. İmperiyaların çöküşü, ideoloji dəyişikliklər, sürgünlər və əritmə, yoxetmə cəhdləri qarşısında türk mədəniyyəti həmişə özünü xatırladan bir kimlik modeli olub; çünki o, özü dövlətlər, imperiyalar quran yaxud quruculuq içində özünü göstərən böyük hadisədir. Həm də elə bir hadisə ki, zaman-zaman məhsul, şəkil, xeyirxahlıq və b. sonuclarından yararlanan yadlar-yabançılar adını "unudub", sanını çəkməyib...**



*(əvvəli ötən sayımızda)*

IV. DİRƏNİŞ GÜCÜ: MƏDƏNİ ÖZÜNÜQORUMA MEXANİZMLƏRİ

Tarix boyunca bir çox xalq böyük mədəniyyətlərlə təmas qurub, lakin bu təmaslar sonucunda çox zaman öz mədəni varlığını itirib. Türk topluluqları isə min illər boyu fərqli coğrafiyalarda çoxçeşidli siyasi və ideoloji təzyiqlərə baxmayaraq, kimliklərini, mədəni yaddaşlarını qorumağı bacarıb. Bu isə həm fiziki, həm də mədəni direniş sisteminin güclü olması ilə bağlıdır.

Türk mədəniyyətinin direniş gücünün əsas qaynaqlarından biri möhkəm ailə modeli və kollektiv yaşayışa əsaslanan icma anlayışıdır. Özəlliklə kənd yerlərində nəsildən-nəslə ötürülən dəyərlər çağdaşlığın mərkəzləşdirici təzyiqlərinə qarşı güclü müdafiə xətti formalaşdırıb. Bu sözlərin yazarı özü ölkə paytaxtından ~450 km uzaqda, dəniz düzeyindən ~1551 m. yüksəklərdə, Tovuzun dağ kəndində doğulub, boya-başa çatıb; o kəndin etnoyaddaşı, gələnək-görənəkləri (necə deyərlər) sonralar akademik nəşrlərdən öyrənilən uyğun mövzuların gündəlik, açıq, cana hopan, səmimi və xeyirxah dərsləri kimiydig

Ailə içindəki tərbiyə və şifahi ötürmə, yazılı mədəniyyətin sıxışdırıldığı dönəmlərdə belə gələnəyin canlı qalmasını təmin edib.

Yəni soy, oba və şennik mədəniyyəti insanın yalnız fərd olaraq yox, bir kökün, bir yurdun və bir sözün daşıyıcısı kimi yetişməsinə münbit ortam yaradıb.

Dil - mədəniyyətin daşıyıcısı olmaqla birgə, həm də onun sınır keşikçisidir. Bəli, türk xalqları əlifba dəyişikliklərinə baxmayaraq, dili qorumağı bacarıb, şivələr, deyimlər və xalq şeiri vasitəsilə kimlik şüurunu yaşadıb.

Aşıqlar, ozanlar öz sənətkarlıqları ilə mədəniyyətin keşikçisi olub.

Nağıllar, tapmacalar, atalar sözləri uşaqlıqdan başlayaraq şüuraltı müdafiə divarı rolunu oynayıb...

Türk mədəniyyətində simvollar və nişanələr həm maddi, həm mənəvi yaddaşın əsas dayaqlarıdır. Bayraq, xalça naxışları, qopuz səsi, bozqurd işarəsi, ocaq, toy, qurbangahg - bunlar bir əşya və ya ayin olmaqda qalmayıb - eyni zamanda, içsəl kimliyin rəmzidir.

Ritualın təkrarı: Novruzun hər il keçirilməsi, ellikcə alxışlar, qutlu doğum törənləri və bu kimi digər tədbirlər gələnəyin daimi olaraq yenidən üretilməsinə münbit ortam yaradır.

Məkan yaddaşı: dağlara, çaylara, qəbristanlıqlara və qutsal məkanlara verilən anlamlar sayəsində mədəniyyət təkcə dildə qalmayıb, daşda və torpaqda da qorunub.

Sürgünlər, köçlər və məcburi ayrılıqlar türk toplumlarının mədəni yaddaşında həm bir yaraya, həm də bağa çevrilib. Axıska, Krım, Uyğur, Kərkük və Güney Azərbaycanın milli bilgiləri bu "sürgün yaddaşı"nı mədəniyyətin daşıyıcısına çevirməyi bacarıb.

Sürgün ədəbiyyatı və nostalgiya, məcburi ayrılığın həm də yenidən doğuluş qaynağı ola biləcəyini göstərib.

Ana dilində dualar, damaq yaddaşını oyadan yeməklər, ruha üz tutan musiqilər yeni nəsillərə kimlik ötürməsinin şifrələrini təqdim edibg

Bugünkü dünyada mədəni direniş yalnız gələnəksəl vasitələrlə olmur; o, həm də rəqəmsal platformlar, təhsil, mədəni diplomatiya kimi çağdaş üsullarla davam etdirilə bilir.

Ortaq əlifba və terminologiya üzrə aparılan işlər kulturoloji yaxınlaşmamızı sürətləndirir və şüurlu gələcək planlamasını mümkün qılır.

TÜRKSOY (Ankara), Türk Akademiyası (Astana), Türk Mədəniyyəti və İrsi Fondu (Bakı), TÜRKPA (Bakı), Türk Yatırım Fondu (İstanbul), Türk Dövlətləri Təşkilatı Daimi katibliyi (İstanbul), habelə qardaş Türkiyənin müvafiq qurumları - Yunus Əmrə İnstitutu, TİKA, YTB və diaspor qurumları sayəsində türk mədəniyyəti artıq öz təsir dairəsi olan bir mədəniyyətə çevrilməkdədir.

Direniş yalnız silahla olmaz - bəli; bəli, mədəniyyəti qorumaq da ruhi savaş növüdür. Türk mədəniyyəti öz çevrəsinə - sözlə, səslə, simvolla yaşamaq və yaşatmaq kimi - bir mədəni şüur modeli olaraq təsir edir.

V. PERSPEKTİV: MƏDƏNİYYƏTİN GƏLƏCƏYİ VƏ STRATEJİ AÇILIMLAR

Mədəniyyət yalnız keçmişin yadigarıdırmı? - Əlbəttə, xeyr; o, əlbəttə, gələcəyə uzanan iradə, yön, varlıq strategiyası kimi də xarakterizə olunmalıdır. Türk mədəniyyəti yüz illər boyunca dözümlü və daşıyıcı gücünü sübut etmiş sistemdir. İndi isə (haqlı olaraq) bu zəngin mədəni sərvətin yeni nəsillərə ötürülməsi, rəqəmsal dönəmin tələblərinə uyğunlaşdırılması və qlobal mədəniyyətlər arasında möhkəm mövqe tutması gündəmdədir.

Bu gün Türk dünyası etnik bağların yanında, siyasi, iqtisadi və mədəni strukturlar baxımından da yaxınlaşma mərhələsindədir. Bu yaxınlaşma ortaq mədəniyyət strategiyalarının işlənməsini və koordinasiyalı mədəni siyasətlərin həyata keçirilməsini zəruri edir.

Türk Dövlətləri Təşkilatı (TDT) və digər ortaq türk platformaları işbirliyinin institusional bazasını yaratsa da, praktik sahəyə düşən gerçək təsiri artırmaq vacibdir.

Ortaq mədəniyyət təqvimi, tədris proqramlarının uyğunlaşdırılması, mədəni turizm layihələri, birgə rəqəmsal platformlar bu inteqrasiyanı sürətləndirə bilər.

Rəqəmsallaşma, mədəniyyətlərin yayılmasında həm böyük fürsət, həm də ciddi təhlükə daşıyır. Türk mədəniyyəti üçün bu çağ, özünü yenidən izah etmə, vizuallaşdırma və əlçatan etmə dönəmidir.

Rəqəmsal arxivlər, virtual muzeylər, ortaq "e-kitab" platformları ilə mədəniyyətin qorunması və gənc nəslə çatdırılması mümkündür.

Rəqəmsal folklor konsepti - "TikTok", "Instagram", "YouTube" kimi platformlarda milli musiqi, söz, dil və simvolların paylaşılması - çağdaş mədəniyyət savaşında önəmli alətə çevrilməkdədir.

Süni intellekt vasitəsilə xalq nağıllarının, musiqi motivlərinin, dil strukturlarının emalı - mədəniyyətin həm elmi, həm strateji baxımdan dərinliyini artıra bilər.

Mədəniyyət bir iç məsələ olmaqdan çoxdan çıxaraq beynəlxalq münasibətlərin əsas alətlərindən birinə çevrilib. Türk mədəniyyəti bu baxımdan "yumşaq güc" elementi kimi daha şüurlu və sistemli istifadə olunmalıdır.

Birgə film istehsalları, musiqi festivalları, ədəbiyyat günləri və mədəniyyət attaşelikləri vasitəsilə Türk mədəniyyəti qitələr arasında cazibə mərkəzinə çevrilə bilər.

Özəlliklə Avropa, Balkanlar və Uzaq Gündoğarda türk mədəni diplomatiyasına məxsus brendlər yaradılmalı, Dədə Qorqud, Manas, Yunus Əmrə, Koroğlu kimi şəxsiyyətlər ətrafında qlobal mədəni təhkiyələr qurulmalıdır.

Mədəniyyətin davamlılığı üçün onun təhsil sisteminə inteqrasiyası da vacibdir. Texniki bacarıqlar öz yerində, bununla birgə, yeni nəsillər mədəni kimlik və estetik şüurla da yetişdirilməlidir.

Örnəyi, məktəblərdə türk mədəniyyəti dərsləri, xalq ədəbiyyatı və aşıq sənəti atelyeləri, ana dili və tarix dərslərinin milli məzmunla zənginləşdirilməsi təklif olunmalıdır.

Gənclər arasında mədəniyyət mentorları (yolgöstərənləri), rəqəmsal dastançılar və dil elçiləri formalaşdırılmalıdır.

Türk mədəniyyəti yalnız bir etnosun yox, bəşəriyyətin ortaq mədəni sərvətinə töhfə verən böyük bir sivilizasiya daşıyıcısıdır. Bu səbəbdən onun perspektivləri yalnız "qorumaq" ilə sınırlanmayıb, yaratmaq, tanıtmaq və dəyişmək üzərində qurulmalıdır.

Ekofəlsəfi elementlər, doğa ilə ahəngdar yaşam (bu yerdə "Çölçü"nün qurucu-başqanı Eltən Törəçinin "Çöldə yaşam öyüdləri", "Çölçü Obası" yada düşür) prinsipləri, at-ov-doğa üçlüyü kimi arxaik temalar çağdaş ekoloji fəlsəfə ilə birləşdirilə bilər.

Türk mədəniyyətindəki icma dayanışması, qonaqpərvərlik, söz etikası kimi dəyərlər bugünkü parçalanmış, fərdiyyətçi dünyaya alternativ model kimi təqdim oluna bilər.

Türk mədəniyyəti zəngin irs olmaqla yanaşı həm də gələcəyin mədəniyyətidir.

Bax, ortaya qoyulmalı olan yeni təhkiyə budur.

Gələcəyə yönəlik mədəniyyət təkcə özünü qorumaqla yetinmir; o həm də yenilənir, yenidən yaradılır və digər mədəniyyətlərlə dialoq quraraq yaşamağa davam edir. Türk mədəniyyəti bu anlamda həm birləşdirici yaddaş, həm də gələcəyi quran güc kimi mövqelənməlidir.

Mədəniyyət bayrağımız uca olsun!

*Əkbər QOŞALI*